# Müasir Bakının qədim şəhəri

## *Bu gün İçərişəhər müasirliklə keçmişin vəhdətini yaşadır*

Xəzər dənizinin sahilində yerləşən, tarixi çox qədim olan Bakı əsrlər boyu şərq, cənub və şimal qonşuları ilə ticarət etmiş, həm karvan, həm də dəniz vasitəsilə qurulan bu əlaqələr təbii ki, onun inkişafına, mədəniyyətinin formalaşmasına təsirsiz qalmamışdır. Həmin dövrlərdə memarlıq da sürətlə inkişaf edir, Bakıda əzəmətli binalar tikilirdi. Mədrəsə və karvansaralarla yanaşı, şəhərin ən hündür hissəsində isə dövrün hakimləri olan Şirvanşahların möhtəşəm sarayı ucaldılmışdı. Bu gün müasir Bakının ən qədim hissəsi, iki min ildən çox yaşı olan İçərişəhər bu tarixi öz köksündə yaşadır. Müasirliklə tarixiliyin qovuşduğu bu yerləri seyr edəndə bu günün mənzərəsində qədim Bakının keçmişi əks olunur.

Bakının qədim bir parçası - vaxtilə "heybətli qala", İpək yolu üzərində ən iri məntəqə sayılan İçərişəhər UNESCO tərəfindən Ümumdünya mədəni irs siyahısına daxil edilmiş qədim memarlıq abidəmizdir. Müsahibimiz **Azərbaycanın əməkdar memarı, Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə** xalqımızın estetik zövqünü formalaşdıran daş salnaməmizin tarixindən danışdı.



**– Elbay müəllim, Azərbaycan öz tarixi, mədəni abidələri ilə bütün dünyada tanınır. Tarix boyu bu mədəniyyət nümunələri qorunub mühafizə edilmiş və bu günümüzə gəlib çatmışdır. Bakının simvolu sayılan, dünya inciləri siyahısında yer alan İçərişəhər şəhərimizə gözəllik gətirməklə yanaşı, tarixilik baxımından da əhəmiyyətlidir. Gəlin İçərişəhərin tarixinə qısaca da olsa nəzər salaq.**



– Əlbəttə, keçmişini, tarixini bilməyən xalq heç vaxt inkişaf edə bilməz. Çünki hər bir inkişafın əsası, kökü olmalıdır. Bakı Azərbaycanın paytaxtıdır, Bakının ürəyi, Bakının əsası isə İçərişəhərdir. Bu qədim şəhərin yaşı iki min ildən çoxdur. İçərişəhərin ərazisində yerləşən ən qədim məbədlərdən biri olan Qız qalası haqqında müxtəlif versiyalar var. Kimi bunun qoruq, kimi müdafiə, sonralar isə rəsədxana funksiyası daşıdığını deyir. Amma məncə, bu, atəşpərəstlik dövrünün məbədidir. Çünki qalanın yuxarı hissəsində daim alov yanıb. Alov isə zərdüştlüyün əlamətidir. Əgər bu, atəşpərəstlik, zərdüştlük dövrünün abidəsidirsə, deməli, bu xristianlıqdan qabaq tikilib. Bu isə İçərişəhərin iki min ildən çox tarixi olduğunu deməyə əsas verir. O tarixdən bu günə qalan o qədər də çox tikili yoxdur. İçərişəhər bir neçə qapıdan ibarətdir. Arxeoloqlar Qız qalasının altında qədim tikililər aşkar ediblər. Hətta orada Qafqazda ilk müsəlman məscidlərinin qalıqları da tapılıb. İçərişəhərin yerinə gəlincə isə bu, təsadüfən seçilməyib. Qədim rəvayətə görə, Azərbaycan ərazisinə xristianlığı gətirən, burada təbliğ edən müqəddəs Vorfolomey Qız qalasının altında olan qaya üzərində edam olunub.

Deyilənə görə, Qafqaz Albaniyası dövründə bir hökmdarın qız övladı dünyaya havalı gəlib. Hökmdar qızını sağaldana qızılla yüklənmiş dəvə karvanı bağışlayacağını vəd edir. Müqəddəs Vorfolomey hökmdarın qızını sağaldır. Vədinə əməl edən hökmdar qızıl karvanını ona təklif edəndə müqəddəs Vorfolomey - mən bura qızıl almağa deyil, insanların qəlblərini almağa gəlmişəm, - deyir. Hökmdar və onun ətrafındakı insanlar xristianlığı qəbul edirlər. Amma zərdüşt din xadimləri üsyan qaldırır, hökmdarın qardaşının köməyi ilə dövlət çevrilişi edirlər. Müqəddəs Vorfolomey isə Qız qalasının altında olan həmin o qayanın üstündə edam edilir. Onun xatirəsinə qayanın yaxınlığında xristian kilsəsi də tikilib. Kilsənin qalıqları bu gün də qalır. XIX əsrin ortalarında çar qoşunları Bakıya daxil olanda rus əsgərləri həmin o kilsədə ibadət edirdilər. Bunu təsdiq edən bir faktı da deyim, 90-cı illərin sonlarında rus patriarxı Aleksey Bakıya gələndə Azərbaycan Respublikasının Prezidenti, ulu öndər Heydər Əliyevdən müqəddəs Vorfolomeyin edam olunduğu qayanın üzərində ibadət etmək üçün izn verilməsini xahiş etmişdi.

**– Abidələr tariximizin daş yaddaşı, xalqımızın mədəniyyətinin, inkişafının göstəricisi, sinəsi dolu qədim kitabələrdir. Hər dalanı, hər tikilisi tarix olan İçərişəhər də canlı abidə deyilmi?**

– Ümumiyyətlə, mən hesab edirəm ki, hər bir abidə canlıdır. Çünki abidə insanla canlı dialoq qurur. İnsan abidələrlə rastlaşanda onda müəyyən fikirlər yaranır, xatirələr yada düşür və o xatirələri həmin daş binalarla, küçələrlə, dalanlarla bölüşür. İçərişəhərin tarix- memarlıq abidələrindən Qız qalası, Şirvanşahlar saray kompleksi, Qala divarları həqiqətən canlı abidələrdir.

Orta əsrlərdə heç bir şəhər müdafiə sistemi olmadan təhlükəsiz yaşaya bilməzdi. İçərişəhəri hər tərəfdən qülləli hündür divarlar - qala hasarları əhatə edirdi. Bakı çox yaxşı müdafiə olunurdu. XII əsrdə yaşamış böyük Azərbaycan şairi Xaqani Şirvani Bakını həmin dövrdə Şərqin ən heybətli və alınmaz qalalarından biri olan İrandakı Bəstam qalası ilə müqayisə edirdi.

Hər millətin özünəməxsus xüsusiyyətləri var. Azərbaycan xalqının ən təqdirəlayiq xüsusiyyətlərindən biri isə xalqına, millətinə, tarixinə bağlılığıdır. Və etiraf edək ki, son illər gənc nəsildə vətənpərvərlik hisslərini təbliğ etmək, onlara tariximizi tanıtmaq dövlətimizin diqqət mərkəzində saxladığı məsələlərdəndir. Bu istiqamətdə müəyyən işlər görülür, layihələr həyata keçirilir. 2013-2014-cü illərdə möhtərəm Prezidentimizin tapşırığı ilə Azərbaycan Memarlar İttifaqı 25 adda memarlıq mövzusunda 3 dildə - Azərbaycan, ingilis, rus dilində kitablar nəşr etdirdi. Eyni zamanda, Azərbaycan memarlığını ibtidai dövrdən son dövrlərə qədər özündə əks etdirən 5 cildlik ictimaiyyətə təqdim olundu.

Memarlıq sənətinin tarixi yüz illərlə ölçülür. Zaman, nəsillər dəyişir, amma xalqın yaddaşına həkk olunan mədəni irsimiz əsrlər, qərinələr boyu yaşayır. Ümumiyyətlə, memarlıq mühiti insanı tərbiyə edir və onun insanın formalaşmasına həm estetik, həm də tərbiyəvi təsiri var. Bu baxımdan, abidələr həqiqətən canlıdırlar.

**– Tarixi, mədəni abidələri qorumaq, onları gələcək nəsillərə çatdırmaq hər zaman dövlət üçün prioritetdir. Bəs, İçərişəhərin qorunub saxlanılması istiqamətində nə kimi işlər görülür?**

– Dövlət tərəfindən İçərişəhər Qoruq elan olunub. Tarixi-memarlıq qoruğu statusuna malik olan İçərişəhər kompleksi UNESCO tərəfindən "Zərdüşt, Sasani imperiyası, ərəb, fars, Şirvan, Osmanlı dövləti və Rusiya mədəniyyətini əks etdirən məşhur və nadir tarixi şəhər ansamblı və heykəltəraşlıq nümunəsi" adlandırılıb. Qoruğun xüsusi tələbləri var. Və mən hesab edirəm ki, bu tələblər yerinə yetirilir. Son 18 il müddətində İçərişəhərdə çox böyük işlər görülüb. Bu gün İçərişəhər təmizdir, abaddır, küçələri işıqlıdır. İçərişəhərlə bağlı cənab Prezident İlham Əliyev bir neçə qərar imzalayıb və o qərarlar əsasında İçərişəhərdə bir sıra işlər görülüb. Bu yaxınlarda böyük bir kompleks olan Bakı Xanlarının Sarayı bərpa olunub. Sıx, dar küçələr, meydanlar genişləndirilib. Xarici turistlərin bura gəlməsi, yaşı qədimdən qədim olan İçərişəhərimizi görməsi üçün hər cür şərait yaradılıb.

Müşahidələrimə görə, tarixi abidələrin qorunması Baltika ölkələrində çox yüksək səviyyədədir. Tallində, Riqada da tarixi yerlərə qayğı ilə yanaşır, mümkün qədər bu yerləri qoruyurlar. Şəhərin həmin yerlərində demək olar ki, nəqliyyatdan istifadə olunmur. Bu yerlərdə insanlar piyada gəzir. Təəssüf ki, bizdə belə deyil. İnsanlar İçərişəhərə gəzməyə gələndə də avtomobillə gəlirlər. Lakin gec və ya tez bunun qarşısı alınmalıdır. Çünki maşınların hərəkəti zamanı binalar silkələnir, çatlar əmələ gəlir. Digər bir məsələ isə İçərişəhərin altından metro xəttinin keçməsidir. Bu da böyük problemdir. Hardasa 30 il budan qabaq mən bununla bağlı məsələ qaldırmışdım ki, həmin hissədə qatarların relsləri dəyişilsin. Belə bir praktika var ki, onlar dəmirdən yox, kauçukdan olur və detenasiya vermir. O vaxtı çox müzakirələr aparılsa da, böyük vəsait tələb olunduğundan məsələ həllini tapmadı. Müstəqilliyimizin bərpasının ilk illərində bu mümkün olmadı, amma bu gün Azərbaycan iqtisadi cəhətdən dünyanın kifayət qədər inkişaf etmiş ölkələrindən birinə çevrilib və məncə, bu məsələyə yenidən qayıtmaq vaxtıdır.

**– Sizcə İçərişəhərin dünyanın harasındasa bənzəri varmı? Bakının bu tarixi hissəsini dünyanın hansı ölkəsi ilə müqayisə etmək olar?**

– Dünyanın çox ölkəsində olmuşam. Çox qədim şəhərlər görmüşəm. Hər getdiyim şəhərin mütləq qədim hissəsini gəzmişəm. Daxilimdə qədim şəhərlərə böyük hörmət hissi olub hər zaman. Onlar çox şeydən xəbərdardırlar. Öz hakimlərinin qəhrəmanlıqlarından tutmuş, müharibələrə, istilalara və daha nələrə şahidlik edib qədim şəhərlər. Qədim şəhərlər mədəniyyət mərkəzi olmaqla bərabər, həm də xalqın səviyyəsini göstərir. Hər dəfə belə bir mühitə düşəndə gözümün önünə İçərişəhəri gətirmişəm. Amma bilmirəm nədənsə dünyanın ən gözəl şəhərləri öz yaraşığı ilə məni heyrətləndirsə, geniş, işıqlı prospektləri ilə diqqətimi cəlb etsə də, mən İçərişəhəri dünyanın heç bir şəhəri ilə müqayisə edə bilmirəm. Bu da təbiidir.

**– Hər bir sahədə inkişaf əldə olunmuş nailiyyətlərə söykənir. Memarlıqda, şəhərsalmada isə müasirliklə qədimliyin vəhdəti gözəl ansambl yaradır. Dünənin, bu günün İçərişəhəri sabah necə görünəcək?**

– Bilirsiniz, abidələrə yanaşmada müxtəlif yollar var. Bir var restovrasiya - yeni, bərpa işləri. Heç bir şeyi korlanmayan, hansısa elementi sınan binalar bərpa olunur və bərpası zamanı görkəmi olduğu kimi saxlanılır. Orda böyük dəyişiklik olunmur. Amma elə abidələr var ki, 30-40 faizi artıq itirilib, dağıdılıb. Belə yerləri konservasiya edib saxlamaq lazımdır. Belə ki, bərpa adı ilə yenidən bir abidənin tikintisi gözlənilən nəticəni vermir. Onun qiyməti elə tarixiliyindədir. Bunun yeganə yolu konservasiya etməkdir. Misal üçün, Yerusəlimdə, qədim şəhərdə də uçulmuş binalar çoxdur. Onlar bunu konservasiya edib saxlayırlar. Necə var elə də qalıb. Belə misallar çoxdur. Mənim fikrimcə, İçərişəhəri konservasiya etməklə qoruyub saxlamaq, gələcək nəsillərə tarixi bir abidə olaraq təqdim etmək lazımdır. O zaman qədim İçərişəhər min illər keçsə də, yaşayacaq, Xəzərin sahilində əzəmətli qala, açıq səma altında nəhəng muzey və eyni zamanda canlı abidə kimi uzun illər tariximizə şahidlik edəcək .

**– Maraqlı söhbətə görə sağ olun.**

Müsahibəni apardı:
Mehparə ƏLİYEVA,
"Respublika".